KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

DÎPLOMAT

www.Diplomata-kurdi.com

№ 12 (160), 2 - 8 Aprel, Nîsan - sal 2012
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiyməti, Hêjaye, 40 qəpik

**Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!**

**Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.**

**Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.**

Səbahəddin Eloğlu

Səh. 2

AZƏRBAYCAN-QIRĞIZISTAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ OLMUŞDUR

Səh. 3

BÜTÜN MÜHARİBƏLƏRİN SONU SÜLHLƏ BİTİB

Tahir Süleyman:"Azərbaycanda kürd problemi yoxdur, amma bunu yaratmağa çalışan qüvvələr də var"

Америка нуждается в курдской политике

Səh. 14

"Kürdüstan bir neçə dövlətin arasında bölüşdürülüb"

Səh. 2

Səh. 8

28 Mart'ta yaşamını yitirenler unutulmadı

Səh. 3

CİA-dan Türkiyəyə təklif



Səh. 10

Nêçîrvan Barzanî pêşwaziya bereyê Sedir kir

Səh. 16

В Канаде выходит книга о геноциде курдов

Səh. 6

NEYARÊ HAR !

Səh. 5

31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ

Səh. 6

MƏN DAĞLARIN NƏR OĞLUYAM

Səh. 4

Suriya böhranının həlli Tehranın əlindədir

Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimi olmuşdur

Prezident İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Almazbek Atambayevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimi olmuşdur.

"Azərbaycan Respublikası Prezidentinin və Qırğız Respublikası Prezidentinin Birgə Bəyanatı"nı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Almazbek Atambayev imzaladılar.

"Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Qırğız Respublikasının Narkotiklərə Nəzarət üzrə Dövlət Xidməti arasında narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın daxili işlər naziri Ramil Usubov və Qırğızıstanın Narkotiklərə Nəzarət üzrə Dövlət Xidmətinin sədri Vitali Orozaliyev imzaladılar.

"Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Azərbaycan Respublikasının Dünya Ticarət Təşkilatına qəbul olunması üzrə Protokol"u Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Qırğızıstanın xarici işlər naziri Ruslan Kazakbayev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında vergi qanunvericiliyinə riayət edilməsi məsələləri üzrə əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Qırğızıstanın xarici işlər naziri Ruslan Kazakbayev imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Qırğızıstanın xarici işlər naziri Ruslan Kazakbayev imzaladılar. "Azərbaycan Respublikası Hökuməti və Qırğız Respublikası Hökuməti arasında mülki müdafiə (mühafizə), fövqəladə halların qarşısının alınması və aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Qırğızıstanın xarici işlər naziri Ruslan Kazakbayev imzaladılar.

İlham Əliyev Bolqarıstanın Azərbaycandakı səfiri Vasil Kalinovu fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir

Prezident İlham Əliyev Bolqarıstan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vasil Kalinovu fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Dövlət başçısı Vasil Kalinovun ölkəmizdəki diplomatik fəaliyyəti dövründə Azərbaycan ilə Bolqarıstan arasında siyasi, təhlükəsizlik, energetika və regional əməkdaşlıq sahələrində əlaqələrin inkişaf edərək yaxın tərəfdaşlıq səviyyəsinə yüksəlməsindən məmnunluğunu bildirdi. Bolqarıstanlı diplomatın Azərbaycandakı fəaliyyətini yüksək qiymətləndirən Prezident İlham Əliyev gələcək fəaliyyətində ona uğurlar arzuladı.

Səfir Vasil Kalinov ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq münasibətlərimizin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Vasil Kalinov Azərbaycandakı diplomatik fəaliyyəti dövründə səfirliyin fəaliyyətinə yaradılan şəraitə görə Azərbaycan hökumətinə və şəxsən Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

FHA: Suriya əleyhinə İstanbul zirvəsi başlamadan məğlubiyyətə uğradı

Deyerler.Org: Bəşər Əsəd əleyhdarı 12 müxalif kürd qrupları Suriya Milli Şurasını tərk edib. Bu qruplar aprelin 1-də keçiriləcək "Suriya dostları"nın iki günlük İstanbul zirvəsi ərəfəsində bu addımı atıb. İstanbulda təşkil edilən zirvə suriyalı müxalif qrupların dərin fikir ayrılıqlarına səhnə olub. (FHA)

Türkiyə və Qətərin rəhbərliyilə və Amerikanın əmrlərilə yaradılan "Suriyanın dostları" qrupunun İstanbul zirvəsində 12 kürd müxalif qrup Suriyanın Milli Şurasından çıxdıqlarını bəyan edib. Mövzu ilə əlaqədar gələn xəbərlərə görə, sözügedən suriyalı kürd qrupları şuranın suriyalı kürdlərin haqlarını tanımaması səbəbindən "zirvən"i tərk edib. Şuranın kürd üzvlərindən birinin verdiyi açıqlamada uydurma milli şuranın başda kürdlər olmaqla Suriya xalqının hamısını təmsil etmədiyini ifadə edib.

/Deyerler.Org/

"Kürdüstan bir neçə dövlətin arasında bölüşdürülüb"



Şimali İraqdakı Kürd muxtariyyətinin başçısı Məsud Bərzani "Əl-Şarkiye" televiziyasına açıqlamasında heç bir bölünmə ya da birliyin zorla olmayacağını bildirib və buna nümunə olaraq Çexoslavakaiya və Almaniyanın adını çəkib. "ELPress"in Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, "Vaxt gələcək kürd xalqı birləşəcək və taleyini özü həll edəcək"-deyə açıqlama verən Məsud Bərzani qeyd edib ki, illərdir ki, kürdlərə qarşı zülm edilir: "Kürdlər bir gün birləşəcək. Bu həqiqəti danmaq olmaz. Bizim də xalq olaraq ərəb, fars və türklərdən fərqimiz yoxdur. Kürdüstan bir neçə dövlətin arasında bölüşdürülüb və onun mestəqil dövlət olmağına heç vaxt imkan verilməyib".

Ərəb Birliyi sammitinə raket zərbəsi

İraq 22 il fasilədən sonra Ərəb Birliyinin sammitinə ev sahibliyi edəcək. Sammitin açılışını kürd əsilli İrak prezidenti Cəlal Tələbani edib. "Reuters"agentliyinin verdiyi xəbərə görə, sammitin aparıldığı "Yaşıl rayon" adlı əraziyə minaatan və qumbaraatanlardan raket atəşi açılıb. İraq rəsmiləri ölü və yaralıların olmadığını bildirir. Amerika işğalından sonra ilk dəfə keçirilən Ərəb Birliyin sammitinin təhlükəsizliyi üçün 500 milyon dollar xərclənib. Suriya sammitə qatılmayacaq. Amma sammitdə müzakirə ediləcək əsas mövzu Suriyadakı vəziyyət olacaq.

Ərdoğan: "Dəqiq bir şey söyləmək mümkün deyil"

İranda səfərdə olan Türkiyə baş naziri Rəcəb Tayyib Ərdoğanın İran prezidenti Mahmud Əhmədinejadla görüşü başa çatıb.

Publika.Az-ın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, Tehranın Saadabad sarayında keçirilən görüşün əsas müzakirəsi mövzusu Suriya və nüvə enerjisi olub. Görüş zamanı baş nazir Ərdoğan Suriyada baş verənlərlə bağlı Türkiyənin mövqeyini Əhmədinejada çatdırıb. Suriyadan sonra ən önəmli məsələlərdən olan İranın nüvə enerjisi proqramı iki ölkə rəhbəri tərəfindən müzakirə olunub. Seuldakı Nüvə Enerjisi Zirvəsindən sonra Əhmədinejadla görüşən Türkiyə baş naziri zirvə görüşündə verilən qərarları onunla müzakirə edib.

Bundan başqa, iki ölkə rəhbəri terrorla mübariza məsələləri və regional məsələlərlə bağlı müzakirələr aparıb.

Görüşdən əvvəl Ərdoğan jurnalistlərə verdiyi açıqlamada 5+1 adlandırılan, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri ABŞ, İngiltərə, Fransa, Rusiya və Çinlə bərabər Almaniyanın da təmsil olunduğu qrupla İran arasında görüşlərin İstanbulda keçirilməsi məsələsi ilə bağlı belə deyib: "Hələ bitən bir şey yoxdur. İranla Suriya məsələsində fərqli yanaşmalar olduğu aydındır. Yaxınlaşma əldə olunmasına gəldikdə, hələlik bu görüşləri keçirmədən dəqiq bir şey söyləmək mümkün deyil".

Publika.Az

Bərzanidən təəccüblü açıqlama

"Heç bir parçalanma və birliyin zorla olamayacaq. Nümunə kimi Çexoslovakya və Almaniyanı göstərmək olar. Kürd xalqı, gün gələcək birləşəcək və öz talehini özü təyin edəcək"

FaktXeber.com-un vverdiyi məlumata görə, mərkəzi Bağdadda olan Əl-Şərqiyə televiziyasına açıqlama verən Regional Kürd Rəhbərliyi lideri Məsud Bərzani, təəccüblü açıqlamalar verib.

"İllərdir kürdlərə qarşı zülm edilir. Ancaq kürdlər də bir gün birləşəcək. Bu həqiqət gözardı edilə bilməz. Bizdə bir xalqıq, digərləri kimi. Fars, ərəb, türk xalqından bir əskiyimiz yoxdur. Ərəb xalqı bir neçə ölkədə bölünüb. Kürdüstan bir neçə ölkə arasında bölünüb və heç vaxt kürd dövləti olmasına icazə verilməyib. Zorla bölünənlər 40 ildən sonra yenə birləşiblər, 40 illik parçalanmadan sonra kürd xalqı gün gələcək birləşəcək və öz talehini özü təyin edəcək. Mən qarşıdurmanı dəstəkləmirəm. Tarixdə kürdlərə zülm edilib. Hmaı bu müjdəli xəbəri gözləyir. Bu müjdə hər an da açıqlana bilər. Amma mən də bilmirəm, mən də buna şahid ola bilərəm, nəvələrim də. Amma bu müjdəli xəbər baş tutacaq və bu qarşısı alınmayacaq həqiqətdir.", deyə bildirib.

FaktXeber

CİA-dan Türkiyəyə təklif

CİA rəhbəri David Petraeusdan Ankaraya "Kürdüstan" rüşvəti!: "Böyük qardaş olun, tanıyın, neft və qazdan pay alın!"

Ankaraya pay təklifi

İslamazeri.az-ın Türkiyə mətbuatına istinadən verdiyi xəbərə görə, hələ 2003-cü ildə Süleymaniyadə Türk əsgərinin başına çuval keçirilməsi təlimatını verən CİA rəhbəri David Petraeusun Ankaraya qəfil səfərinin səbəbi müəyyən oldu. Petraeusun, Türkiyəyə "Kürdüstanın tanınmasına səsinizi çıxarmayın... Böyük qardaşlıq edin, neft və təbii qazdan pay alın!" təklifini etdiyi məlum olub.

Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan və MİT məsləhətçisi ilə görüşən Petraeus, "İraqın mərkəzi rəhbərliyi, Ərbili sıxışdırır. Bu dövlətə qarşı çıxmayın. Kürdüstanın müstəqilliyini tanıyın, böyük qardaş olun, Mosul və Kərkük qaynaqlarından faydalanın" mesajı verib.

Məsud Bərzani isə çox "sevinclidir"

Ankara səfərindən dərhal sonra, İraq kürdlərinin lideri Məsud Bərzani Novruz bayramı ərəfəsində Kürdüstanın yaradılacağı "müjdəsini" vermişdi. O, Ərbildə kürd gənclik komitəsinin təşkil etdiyi konfransda çıxış edərək "Ümid edirəm ki, əlbəttə bir gün yenə bu ayda, o böyük müjdəli xəbər gələcək. Amma o günün doğru bir gün olması lazımdır" demişdi.

Qeyd edək ki, baş nazir Tayyib Ərdoğan da jurnalistlərə verdiyi açıqlamada CİA rəhbəri ilə keçirilən görüşdə İraq mövzusunun müzakirə edildiyini bildirmişdi.

islamazeri.az

Bəşər Əsədə qarşı hərbi şura yaradıldı

Əmrə tabe olmayan helikopter Təhlükəsizlik Nazirliyini bombalayıb Türkiyəyə qaçdı

Suriyada gərginlik davam edir. Bəşər Əsədin əmrindəki əsgərlər hakimiyyət əleyhdarlarına qarşı növbəti qətliamını törədib. Yerli fəalların bildirdiyinə görə, son sutka ərzində hökumət qüvvələrinin keçirdiyi xüsusi əməliyyat zamanı 38 hakimiyyət əleyhdarı öldürülüb. Üsyançı əgərlərlə hökumət qüvvələrinin qarşıdurması zamanı isə 15 əsgər həyatını itirib. Bəşər Əsədin əmrindəki əsgərlər Homs və İdlib şəhərlərində müxaliflərə yönəlik əməliyyatları artırıblar. Homs növbəti dəfə top və raket atəşinə tutulub.

Bundan başqa təhlükəsizlik qüvvələri Türkiyə ilə sərhədə yaxınlıqda yerləşən Saraqəb şəhərində də hərbi əməliyyatlara start veriblər. Hüquq müdafiəçiləri hökumət qüvvələrinin 26 tankın müşaiyyəti ilə şəhərə daxil olaraq müxaliflərin kompakt olduğu yaşayış massivlərini atəşə tutublar. Bəşər Əsədin əsgərləri ilə üsyançılar arasında şiddətli döyüşlər baş verib. Üsyançılar 9 əsgəri öldürməyi bacarıblar.

"Əl-Ərəbiyyə" kanalı isə müxalifətə istinadən bildirib ki, Suriya ordusunda xidmət edən helikopter pilotu Hələb şəhərində Əzəz adlı məntəqənin bombardman edilməsi əmrinə tabe olmayaraq, helikopterdən Təhlükəsizlik Nazirliyinin binasını atəşə tutub. Hərbi sursatı tükənən pilot sonda Türkiyəyə qaçmalı olub. Suriya dövlət xəbər agentliyi (SANA) məlumatı təkzib edib, rəsmi Ankara isə məlumatı şərh etməyib.

Bəşər Əsədə qarşı vuruşan üsyançılardan ibarət Azad Suriya Ordusunun komandiri polkovnik Riyad Əsəd müxalifətin hərbi şurasının yaradıldığını açıqlayıb. Keçmiş Suriya Hərbi Hava qüvvələri zabiti yeni şuranın Azad Suriya Ordusunun və general Mustafa Əş Şeyxin briqadasınının fəaliyyətinə rəhbərlik edəcəyini bildirib. Hərbi Şuraya məhz Mustafa Əş Şeyx başçılıq edəcək. Bəyanatda şuranın təsis olunmasına dair müvafiq sazişin Türkiyədə bağlandığı və əsas məqsədin Bəşər Əsədə qarşı olan qüvvələrin birləşdirilməsi olduğu qeyd edilir.

azadlıq.info

BÜTÜN MÜHARİBƏLƏRİN SONU SÜLHLƏ BİTİB

Tahir Süleyman:"Azərbaycanda kürd problemi yoxdur, amma bunu yaratmağa çalışan qüvvələr də var"

Heç kimin haqqı yoxdur ki, Azərbaycan demokratiyasina kölgə sala. "Güman edirəm ki, "Diplomat" qəzetinin çapına qoyulan qadağa aradan qaldırılacaq. Çünki biz PKK –ya aid materiallarin çoxunu Türkiyə mətbuatından götürürük. O qəzetlərdən biri də, Türkiyədəki "Özgür gündəm" qəzetidir. Qəzet dövlət tərəfindən bağlanmasına baxmayaraq, rəsmlər qəzetin çapına icazə verdilər, hansı ki, bu qəzet 24 saat PKK-dan yazırdı". Bu fikirləri "Vətəninfo.az" saytına açıqlamasında "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleyman səsləndirib. Qəzetin çapına qoyulan qadağanın fevral ayında Hacettepe Universitetinde Xocalı faciəsi ilə bağlı keçirilən aksiyaya kürd əsilli Türkiyə vətəndaşlarının mane olması ilə bağlı olduğu fikirlərə gəlincə isə Tahir.Süleyman "onun bizim ölkəmizə aidiyyəti ola bilməz" deyə bildirdi: "Çünki Azərbaycanda kürd problemi yoxdur, Mənə elə gəlir ki, hər şey zamanla düzələcək".

Çünki maraqlı qüvvələr Türkiyənin Kürd-Türk federativ dövləti olmasına çalışırlar.

"PKK-nın Suriyada yerləşmə məsələsi yəqin ki həqiqətdir. Düşündüyümə görə, Türkiyə Amerikasız heç nə edə bilməz". "Vətəninfo.az" saytına açıqlmasında belə deyən "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleyman bildirdi ki, əgər PKK Suriyaya giribsə, bu Türkiyənin razılığı ilə olub: "Hər halda onlar Türkiyənin ərazisindən Suriyaya keçiblər. Yəqin ki, Türkiyə razılıq verib. Orda başqa faktorları nəzərdən keçirmək lazımdır. Suriyadada İraqdakı kimi muxtariyyət məsələsi gündəmdədir. Hansı ki, Türkiyə İraq Kürdüstanına da qarşı idi. Lakin maraqlı qüvvələr Kürdüstan Muxtariyatini yaratdı və Türkiyə Kürdüstan rəhbərliyi ilə hesablaşır və hətta onlardan kömək də istəyirlər. Düşünürəm Suriyada yaranacaq muxtariyatla, İraq Kürdüstan muxtariyyatı Türkiyəyə birləşdirib, Türkiyənin Federativ Kürd-Türk dövləti olmasına çalışırlar".

Hörmətli oxucular! "Diplomat" qəzetinin nəşrinə əngəl törətmək istəyənlər "Özgür Gündəm" qəzetinin 8 və 9-cu səhifəmizdəki yazılarına baxıb, tutduqları əməldən utansınlar!

Sətri xəbərlər

* Türkiyədə "Ergenekon" terror təşkilatının məsələsinə görə bir neçə yüksək rütbəli zabitin məhkəmə işinə başlanılıb.
* Kürdüstan muxtariyyatının prezidenti Məsud Barzani Avropa ölkələrində səfərdədir. Artıq o, Bolqarıstan prezidenti ilə görüşərək mühüm məsələləri müzakirə edib.
* İraqda keçirilməsi planlaşdırılan Ümumiraq Konfransı aprel ayının 5-də keçiriləcək.
* Cənubi Kürdüstanın paytaxtı Həvler şəhərində şəkil sərgisi keçirilib.
* İstanbulda nəşr olunan "Özgür Gündəm" adlı kürd qəzetinin çapına qadağa qoyulmuşdu. Prakurorluq onları "terrorçuları təbliğ etmək"də günahladırmasına baxmayaraq, dünən qəzetin çapına icazə verildi. Lakin Azərbaycanda çıxan ``Diplomat`` qəzetinə qarşı mehtüdiyyət hələ də götürülməyib.
* Türkiyə prezidenti Abdulla Gülün xüsusi tapşırığı ilə yeni komitə yaradılıb. Bu komitə mərhum prezident Turqut Özalın müəmmalı ölümünü araşdıracaq.
* Kürdüstanın baş naziri Neçirvan Barzani yaxın zamanlarda Türkiyəyə səfər edəcək.
* Kürdüstan Özünümüdafiə dəstələrinin verdiyi məlumata görə, 40 nəfər xüsusi təyinatlı türk hərbiçisi Kandil dağına hücum etmişdir. Lakin kürd partizanlarının əks-zərbəsi zamanı 13 əsgər öldürülmüşdür, 6 –sı isə yaralanmışdır.
* Türkiyə Suriyadaki səfirliyini bağlayıb.
* Kürd təşkilatları Suriyada keçirilən referenduma qatılmayacaqlar.
* Avropa Parlamenti: Türkiyə kürd məsələsində ciddi addımlar atmalıdır.
* Kürdüstan Yurdsevərlər Birliyi partiyasının liderlərindən biri olan Kosrat Rəsul Kürdüstanın yeni vitse-prezidenti seçilib.
* Türkiyə parlamentinin keçmiş üzvü milliyətcə kürd olan Şərəfəddin Xalis 15 il həbs cəzası alıb. Onun günahı ondan ibarətdir ki, o, parlamentdə çıxış edən zamanı söyləmişdir ki, "əgər kürd problemini həll etmək istəyirsinizsə, onda cənab Öcalanla danışıqlar aparmalısınız."
* ABŞ dövlət katibi Xilari Klinton Səudiyyə Ərəbistanına səfər edib.
* Məsud Barzani: Vaxt gələcək bütün kürdlər birləşəcək.
* Türkiyə Kürdüstanından doğma dildə təhsil almaq üçün, imza toplama kampaniyası keçirilir. Artıq 1 milyondan artıq imza toplanılıb.
* İraqın Rusiyadaki səfirliyində Novruz bayramı ilə əlaqədər tədbir keçirilmişdir.
* Kanadada kürdlərin soyqırımına dair kitablar çap olunacaq.
* Moskva şəhərində "Kürdüstanda vəziyyət. A.Öcalanın həbsi" adlı geniş konfrans keçirilmişdir.
* Murad Karayılan: Heç bir hərbi müdaxilə kürd məsələsini çözməyəcək. Əksinə, həmin dövlətlət zəlil olub geri çəkiləcək. Heç kəs kürdləri məğlub edə bilməz.

Türkiyə Suriyadakı səfirliyini bağladı

Türkiyə rəsmiləri Suriyada vəziyyətin getdikcə ağırlaşması səbəbindən bu ölkədəki səfirliyini bağladığını bildirib. Hələ keçən həftə Türkiyə Dəməşqdəki səfirlyini bağlayacağını və vətəndaşlarının geri çağıracağı barədə xəbərdarlıq etmişdi.

Son zamanlar Suriyadakı döyüşlər üzündən Türkiyəyə 17 minə qədər suriyalı keçib. Türkiyə Bəşər Əsəd hökumətini zorakılıqları dayandırmağa çağırmaqda davam edir. Türkiyə eləcə də Birləşmiş Ştatların Suriyadakı üsyançılara yardım təklifini müzakirə etmək üçün gələn həftə keçiriləcək yığıncaqda iştirak etməyə hazırlaşır.

Bu arada isə siyasi fəallar hökumət qüvvələrinin bu gün Homs şəhərini minamyot atəşinə tutmaları nəticəsində bir neçə evin yandığını bildirib.

İsrail komandosları İranda əməliyyat aparır

İraqın kürd bölgəsində yerləşən bir hərbi bazadakı İsrail ordusuna bağlı xüsusi təyinatlıların İran ərazisində kəşfiyyat əməliyyatları keçirdiyi barədə xəbərlər yayılıb. Britaniyada yayımlanan "The Sunday Times" qəzetinin yazdığına görə, kürd bölgəsindəki israilli xüsusi təyinatlılar İran ərazisinə keçmədən öncə saqqal buraxır və iranlı əsgərlərin geyindiyi formadan istifadə edirlər.

Hərbi bazadan "Black Hawk-Sikorsky" helikopterləriylə havaya qalxan xüsusi təyinatlılar İranın Fordo və Perçin nüvə obyektlərindəki işləri müşahidə edirlər. Əməliyyatçıların quruda istifadə etdiyi xüsusi vasitələr də yenə kürd bölgəsindəki hərbi bazaya yük vertoloyotları ilə çatdırılır. Qəzetin qərbli kəşfiyyat qaynaqlarına istinadən yaydığı xəbərdə deyilir ki, israilli kəşfiyyatçılar bu tip əməliyyatları illərdir keçirir. Ancaq son aylarda həmin əməliyyatlar daha da intensivləşib.

azadlıq.info

Baxçalı Ərdoğanı Suriyanı parçalamaqda ittiham etdi

MHP lideri Suriyada aparılan oyunların təhlükəli olduğunu vurğulayıb.Türkiyənin ana müxalifət partiyalarından sayılan Milliyyətçi Hərəkat Partiyasının lideri Dövlət Baxçalı, Ərdoğan hakimyyətini Suriya dövlətini parçalamaq niyyətində olduğunu açıqlayıb. Baxçalı ötən gün partiyanın həftəlik toplantısında çıxış edərkən deyib: "Cənubi Koreyada Ərdoğanla ABŞ prezidenti Barak Obamanın görüşü və orada tərəflərin Suriya mövzusunda eyni mövqedə olmaları barədə verdikləri açıqlamalar onu göstərir ki, Suriyanın işğalı və bu ölkənin parçalanması barədə olan təxribat planı işə düşüb. Suriyanın başına da ərazi bütövlüyünü əldən vermiş İraq kimi oyun açmaq istəyirlər. Onlar, İraqın şimalında yaranan kürd dövlətinə oxşar bir dövləti də Suriyada yaratmaq niyyətindədirlər". Dövlət Baxçalı həmçinin Suriyada xarici müdaxiləyə son qoyulmasını tələb edib.

Bizimxeber.az

Suriya böhranının həlli Tehranın əlindədir

Suriyada baş verən toqquşmaların qarşısının alınması üçün rəsmi Dəməşq çərşənbə axşamı BMT-nin və Ərəb Dövlətləri Liqasının (ƏDL) Suriya üzrə xüsusi nümayəndəsi Kofi Annanın sülh planını qəbul etdi.

Dəməşqin qəbul etdiyi altı maddəlik plana əsasən, hakimiyyət xalqın haqlı tələblərini yerinə yetirməli, suriyalılar tərəfindən idarə ediləcək və bütün siyasi partiyaları əhatə edəcək qruplarla müzakirələrə başlamalı, ölkədə baş verən silahlı toqquşmaya son verərək ordunu şəhərlərdən çəkməli, humanitar yardımların ehtiyac duyulan bölgələrə çatdırılmasına, səbəbsiz həbs edilənlərin buraxılmasına, ölkəyə KİV mənsublarının sərbəst şəkildə girişinə şərait yaratmalı və dinc məqsədli etiraz aksiyalarının keçirilməsinə icazə verməlidir.

Suriyada baş verən hadisələri diqqətlə izlədikdə isə, ölkədə yaxın günlərdə hər hansı bir ciddi irəliləyiş olmayacağını açıq şəkildə görmək olar. Bəşşar Əsədin hakimiyyətdən getməsi belə, ilkin mərhələdə böhranın həlli kimi görünsə də, bu, böhranın tam olaraq həlli demək deyil.

Ölkədə hələ də bir araya gələ bilməyən ciddi müxalifətin olmaması, baş verən hadisələrin artıq müxalifət-hakimiyyət qarşıdurmasından çıxaraq, demək olar ki, məzhəb qarşıdurmasına çevrilməsi hakimiyyətin dəyişməsindən sonra belə, silahlı toqquşmaların davam edəcəyini söyləməyə əsas verir.

Annan planının qəbul edilməsindən sonra baş verən önəmli məqamlardan biri də İstanbulda Suriya müxalifətinin keçirdiyi görüş oldu. Bundan əvvəl də Suriya müxalifəti bu kimi görüşlər keçirsə də, son görüşdə Suriya kürdləri istisna olmaqla bütün siyasi qüvvələr ölkənin ərazi bütövlüyünün qorunması haqqında razılığa gəldilər. Suriya kürdlərinin simasında Demokratik Birlik Partiyasının (Partiya Yekîtiya Demokrat) belə bir razılığa gəlməməyinə səbəb isə uzun vədəli planın bir hissəsidir.

Dəməşqin qəbul etdiyi plan Kofi Annan tərəfindən "sülh üçün atılan" uğurlu bir addım kimi qiymətləndirilsə də, ölkənin müxtəlif şəhərlərində toqquşmalara son verilmədi. Annan Dəməşqin qəbul etdiyi planı hər nə qədər uğurlu hesab etsə də, Suriya müxalifəti Bəşşar Əsədə inanmadığını bildirdi.

Ən maraqlısı isə Türkiyənin də eyni mövqedən çıxış etməsi və ölkənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın İrana rəsmi səfərindən əvvəl etdiyi açıqlamada Ankaranın Bəşşar Əsədin səmimiyyətinə inanmadığını bildirməsi oldu.

Baş nazir Ərdoğan Bəşşar Əsədin əvvəllər də Türkiyə rəhbərliyinə vədlər verdiyini, lakin onlardan heç birini yerinə yetirmədiyini bildirdi. İran Prezidenti Mahmud Əhmədinejad isə Tehranda rəsmi səfərdə olan Suriya XİN-in rəsmisi Feysəl Miqdat ilə görüşü zamanı Dəməşqə dəstək vermək üçün ölkəsinin əlindən gələni əsirgəməyəcəyini bildirdi.

Əslində hazırda Suriya böhranının həlli Qərb, ərəb dövlətləri və Türkiyədən çox Tehranın əlindədir. Ankara və Qərb dövlətləri problemin həlli istiqamətində iqtisadi sanksiyalar qəbul etsələr də, bu o qədər də effektiv olmayacaq. Çünki Suriyanın İranla olan iqtisadi əməkdaşlığı iqtisadi sanksiyaların nəticəsini qismən də olsa azaldır.

Ankaranın təşəbbüsü ilə Suriya ərazisində 20 km-lik "tampon bölgə" yaradılması məsələsinə gəlincə isə, Türkiyə ordusu bununla bağlı Suriya sərhədində kəşfiyyat xarakterli işlər aparsa da, bu layihə düşünüldüyü qədər asan deyil.

Bəşşar Əsəd rejiminin taleyi bu gün Tehranda Türkiyənin Baş naziri Ərdoğan və İran rəsmiləri arasında keçiriləcək danışıqlardan asılı olacaq.

"Financial Times": Ərdoğan avtoritardır

İngiltərənin "Financial Times" qəzeti Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AKP) hakimiyyətdəki 10 ilini dəyərləndirən yazısında partiyanın getdikcə avtoritarlaşdığını bildirib.

Publika.Az-ın "Mynethaber" saytına istinadən verdiyi məlumata görə, Devid Qardner və Daniel Dombeyin yazdığı "Ərdoğanın Türkiyəsi: Daha qəddar bir hakimiyyət" başlıqlı məqalədə Ərdoğanın portretlərinin ölkə ərazisində demək olar ki, respublikanın qurucusu Atatürkün portretləri qədər çox olduğu yazılıb.

Yazarlara görə, Ərdoğan hakimiyyətdəki 10-cu ilində siyasi qüdrətini hər zamankı qədər mühafizə edir. Mətbuat üzərindəki təzyiqlər, siyasi rəqiblərin məhkəmələrdə ittiham olunması hakimiyyətin getdikcə avtoritarlaşdığını göstərir.

Ərdoğanın hakimiyyətdə olduğu 10 il ərzində Türkiyənin regional gücə çevrildiyini, iqtisadiyyatında Çinlə bərabər eyni sürətlə böyüdüyünü və əldə edilən rifahın, səhiyyə xidmətləri, məktəblər və yollarla yayıldığını yazan "Financial Times", qüdrətli generalları həbs edən hökumətin rəqibləri

azaldıqca ona qarşı xoş münasibətin də azaldığını vurğulayıb.

Məqalədə əksəriyyəti kürd olan Türkiyə həbsxanalarındakı 104 jurnalistin İran və Çində həbsdə olan jurnalistlərdən çox olduğu göstərilib.

Publika.Az

Türkiyə İrana qarşı sanksiyalara qoşuldu

Türkiyə İrandan neft alınmasının məhdudlaşdırılması yönündə ilk addımı atıb. Türkiyənin "Hürriyet" qəzeti xəbər verir ki, enerji və təbii qaynaqlar naziri Taner Yıldız İrandan alınan neftin bir qisminin Liviyadan alınacaq neftlə əvəzlənməsi istiqamətdə fəaliyyətə başladıqlarını açıqlayıb.

Taner Yıldız bu il ərzində Liviyadan 1 milyon ton xam neft alınacağını bildirib. Liviyadan nefti özəl şirkətlər və TÜPRAŞ vasitəsi ilə alınacaq. Nazir deyib ki, Liviyadan neft almağa artıq başlayıblar. Odur ki, İrandan alınan neftin miqdarı müəyyən qədər azalacaq. Taner Yıldız Liviya ilə yanaşı Səudiyyə Ərəbistanından da uzunmüddətli müqavilələrlə neft ala biləcəklərini deyib. Nazir bildirib ki, İrandan aldıqları xam neftin həcmini 10 faiz azalda bilərlər.

Taner Yıldızın açıqlamasından dərhal sonra TÜPRAŞ açıqlama yayıb. Açıqlamada qeyd edilib ki, yaranmış vəziyyətlə bağlı İrandan xam neft alınmasının 20 faiz azaldılmasına qərar verilib, bu, digər ölkələrdən alınan xam neftlə əvəzlənəcək.

Bununla Türkiyənin də İrana qarşı beynəlxalq sanksiyalara qoşulduğunu demək mümkündür. Türkiyə sanksiyalara rəğmən İrandan neft alan azsaylı ölkələrdən biridir. ABŞ Dövlət Departamenti bir neçə gün qabaq açıqladığı, İrandan neft alan ölkələrin qara siyahısınaı Türkiyənin də adını daxil etmişdi. Qara siyahıda olan 12 ölkəyə qarşı ABŞ-ın sanksiyalar tətbiq edəcəyi də bildirilmişdi. Ötən gün isə ABŞ-ın Türkiyədəki səfiri Francis Ricciardone bəyan etdi ki, Türkiyə İrana qarşı sanksiyaların tətbiqi ilə bağlı bir qərar verməlidir.

www.mynet.az

31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ

SOYQIRIM – tarixin qanlı səhifəsi

Azərbaycanlılara qarşı iki əsr davam edən soyqırım düşünülmüş şəkildə genişmiqyaslı qanlı aksiya nəticəsində yüzlərlə yaşayış məntəqəsini yerlə-yeksan edib, minlərlə azərbaycanlını böyük qəddarlıqla qətlə yetirmişlər. Ermənilərin Azərbaycana qarşı uzun illər boyu apardığı ardıcıl etnik təmizləmə, soyqırım və təcavüzü nəticəsində minlərlə insan evindən-obasından didərgin düşmüşdür.

Soyqırım siyasətini həyata keçirmək üçün IV-XIX əsrlər ərzində öz dövlətlərinə malik olmayan ermənilər "Böyük Ermənistan" dövlətini yaratmaq üçün Rusiyanın imperiya siyasətindən alət kimi istifadə etmişdilər.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir.

1813-1828-ci illər Rusiya ilə İran arasında gedən iki müharibənin (1804-1813, 1826-1828) sonunda imzalanmış Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələri Azərbaycan xalqının tarixində faciəvi rol oynamış və Azərbaycanın parçalanmasına gətirib çıxarmışdır. Azərbaycanın şimalı Rusiyanın, cənubu isə İranın idarəçiliyinə keçmişdir.

1905-1906 illərdə İrəvan və Gəncə quberniyalarının 200, Şuşa, Cəbrayıl və Zəngəzurun isə 75 azərbaycanlı kəndini ermənilər talan ediblər. Statistik məlumatlara əsasən demək olar ki, 1905-1907-ci illərdə baş verən hadisələrdən sonra azərbaycanlılara qarşı kütləvi repressiyalar gizli şəkildə aparılıb. 1916-cı ilin məlumatları göstərir ki, 1831-ci illə müqayisədə həmin il İrəvan quberniyasının 5 əyalətində əhalinin sayı 40 dəfə artaraq 14 min 300-dən 570 min nəfərədək yüksəlmişdir. Ancaq həmin zaman kəsiyində azərbaycanlıların sayı cəmi 4,6 faiz artaraq 246 min 600 nəfər təşkil edib. Yaxud başqa bir nümunə, əgər 1886-1897-ci illərdə əhalinin mütləq artımı 40 min nəfər olubsa, 1905-1916-ci illərdə bu rəqəm cəmi 17 min nəfər olub. Halbuki hələ 1905-ci ildə 1886-cı illə müqayisədə əhalinin sayı 61 min nəfər çox olub. Bu rəqəmlər çar Rusiyasının idarəçiliyi dövründə erməni millətçilərinin şovinist siyasətini həyata keçirməsindən, "Türksüz Ermənistan" planının reallaşdırılması istiqamətində azərbaycanlıların qovulmasından xəbər verir.

1918-1920-ci illər Birinci dünya müharibəsindən sonra Rusiyada yaranmış vəziyyətdən istifadə edən ermənilər 1917-ci ildə baş vermiş fevral və oktyabr inqilablarından sonra öz istəklərinə bolşevizm bayrağı altında nail olmağa cəhd edirlər. Bakı Soveti əksinqilabi elementlərlə mübarizə şüarı altında 1918-ci ilin əvvəllərindən başlayaraq bütün Bakı quberniyasında yaşayan azərbaycanlıların çıxarılması məqsədlərini güdən cinayətkar planın, reallaşdırılmasına başlayır. 1918-ci ilin mart-aprel aylarında isə qanlı hadisələr zirvə nöqtəsinə çatıb. O aylarda ermənilər tərəfindən törədilən cinayətlər azərbaycan xalqının yaddaşında silinməz iz qoyub. Təkcə milli mənsubiyyətinə görə minlərlə dinc azərbaycanlı məhv edilib. Ermənilər evləri yandırır, insanları diri-diri oda atırdılar. Onlar tərəfindən milli memarlıq abidələri məktəblər, xəstəxanalar, məscidlər və digər tikililər dağıdılır Azərbaycanlıların soyqırımı xüsusi qəddarlıqla Bakı, Şamaxı Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və Azərbaycanın digər ərazilərində həyata keçirilir. Bu torpaqlarda kütləvi qaydada dinc əhali qırılmış, kəndlər yandırılmış, milli mədəniyyət abidələri məhv edilmişdir.

1918-ci ilin mart-aprelində Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 30 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşdur. Təkcə Bakıda 10 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürülüb, Şamaxıda 58 kənd dağıdılmış 7 min nəfər (1653 qadın, 965 uşaq) məhv edilmişdir. Quba ərazisində 122, Qarabağın dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan quberniyasında 211, Qars əyalətində 92 kənd yerlə yeksan olunmuş; əhali üzərində yaş və cinsə məhəl qoymadan qətliam həyata keçirilmişdir. lrəvan azərbaycanlılarının çoxsaylı müraciətlərinin birində ("Aşxadavor" ("Əməkçi") qəzeti, 2 noyabr 1919-cu il) göstərilirdi ki, azərbaycanlıların bu tarixi şəhərində və onun ətrafında qısa zaman ərzində 88 kənd dağıdılmış, 1920 ev yandırılmış, 131 min 970 nəfər isə öldürülmüşdür.

28 may 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaradılması da qurbansız ötüşməyib. ADR-in Nazirlər Sovetinin sədri F.X.Xoyskinin xarici işlər naziri M.H.Hacınskiyə yazdığı məktubda deyilir: "Ermənilərlə biz bütün mübahisələrə son qoymuşuq. Onlar ultimatumu qəbul edib müharibə ilə qurtaracaqlar. Biz ermənilərə İrəvanı güzəştə getdik. Cənubi Qafqazda 3 suveren respublikanın yaranması və müttəfiqlərin köməyi ilə Ermənistan ərazisi 1 milyon 510 mın nəfər əhali ilə (795 min erməni, 575 min müsəlman, 140 min digər xalqlar) 17 min 500 ingilis kvadrat mili həcmində olur. Bununla kifayətlənməyən ermənilər heç bir şeyə məhəl qoymadan "Böyük Ermənistan" ideyası ətrafında Gürcüstanın tərkibində olan Axalkalaki, Borçalı, Azərbaycanın Qarabağ, Naxçıvan, Gəncə quberniyasının cənub hissəsinə iddia irəli sürürlər.

1948-1953-cü illər Sovet hakimiyyəti illərində ermənilər adət etdikləri metodlarla azərbaycanlıların daimi yaşadıqları Ermənistan SSR-dən çıxarılmasını eləcə də qonşu respublikaların torpaqları hesabına öz ərazilərini böyütməkdə davam ediblər. 1943-cü ildə Tehranda keçirilən konfransda ermənilər İranda yaşayan ermənilərin Sovetlər Birliyinə köçürülməsinə icazə verilməsi xahişi ilə SSRİ xarici işlər naziri Molotova müraciət edirlər. Bu məsələdə Stalinin razılıq verməsi faktiki olaraq azərbaycanlıların 1948-53-cü illərdə kütləvi şəkildə Ermənistandan deportasiya olunmasının əsasını qoyur.

1988-ci ildən başlayaraq yenidənqurma, aşkarlıq prosesi antiazərbaycan əhval-ruhiyyəsinin və ərazi iddialarının yeni dalğasını yaratdı. 1945-ci ildə sınaqdan çıxarılmış guya Ermənistanla Qarabağın iqtisadi cəhətdən bir-birinə bağlı olması barədə əsassız iddialarla erməni millətçiləri azərbaycanlıları Ermənistandan qovmağa, Qarabağı isə Azərbaycandan ayırmağa başladılar. 1988-ci ildən başlayaraq kütləvi hədə qorxular, fiziki güc, ölüm, kəndlərin talan edilməsi yandırılması həyata keçirilir. Qukarkda baş verən qanlı hadisələr nəticəsində 70 nəfər öldürülür, onların 21-i qadın 6-sı uşaq olur. Vardenis rayonunda isə 40 nəfər öldürülür. Ermənistanın digər rayonlarından - Yerevan, Masis, Kalinino, Kadjaran, Qafan, Kirovakan, Qoris, Sisian, Amasiya və Alaverdidən 250 min azərbaycanlı öz ev-eşiyindən qovulur. 1905-1920-ci illərin tarixi yenidən təkrar olunur - qadın və uşaqlar, yaşlılar qarlı dağlar aşaraq, dona-dona, insani itkilər verə-verə öz xilaslarını Azərbaycanda axtarırdılar. Yenidən

1948-53-cü illərin tarixi təkrar olunur - İttifaqın mərkəzi hakimiyyətinin qərarları ilə azərbaycanlı qaçqınların Qarabağda yerləşdirilməsinə icazə verilmir, onlar özlərinə çadır şəhərciklərində sığınacaq tapırlar. 1991-ci il avqustun 8-də (18 fevral 1929-cu ildə Ermənistanın tərkibinə verilib) sonuncu azərbaycan kəndi Nüvədidən əhalinin çıxarılmasından sonra Ermənistan faktiki olaraq monomillətçi dövlətə çevrildi. "Türksüz Ermənistan" kimi daşnak ideyası reallaşdı.

1988-ci ildən sonra Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində 7 rayon talan olundu, 1 milyona qədər adam doğma yurdundan didərgin düşdü. Tarixən Azərbaycan xalqına qarşı soyqırım siyasəti həyata keçirən erməni millətçiləri öz vəhşi simalarını bir daha bütün dünyaya nümayiş etdirərək Xocalını yerlə-yeksan etdilər. 1992-ci il fevralın 25-dən 26-na keçən ölüm doğan o gecədə hələ də dəqiq olmayan məlumatlara görə, 613 nəfər xocalı şəhid oldu. Onlardan ancaq 335 nəfərinin meyidini dəfn etmək mümkün olub. 1275 nəfər dinc sakin girov götürülüb, onlardan 150 nəfərinin taleyi bu gün də məlum deyil.

Bu faktlardan göründüyü kimi, ermənilər öz şovinist məqsədlərinə çatmaq üçün beynəlxalq hüquq normalarına məhəl qoymadan bütün mümkün vasitə və metodlardan istifadə ediblər. Sovet hakimiyyəti illərində ermənilər adət etdikləri metodlarla azərbaycanlıların daimi yaşadıqları Ermənistan SSR-dən çıxarılmasını eləcə də qonşu respublikaların torpaqları hesabına öz ərazilərini böyütməkdə davam ediblər.

Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir.

Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cumhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

31 Mart faciəsi tarixə qanlı bir ləkədir. Bu qanlı ləkə, bu faciə düşmənin üzündəki maskaların düşdüyü və canilərin bütün çılpaqlığı ilə ortaya töküldüyü gündə baş verib.

Bu qanlı faciənin gözə çarpan obyektiv mənzərəsi sadəcə kökündən yıxılmaq istəyən böyük bir imreratorluğun çökməsindən ibarətdir.

Hər şeydən əvvəl, hamımızın birinci vəzəfəsi millətimizin üzərindən bu qanlı ləkəni silmək, onları tarix önündə təsvir etmək və bu qanlı ləkəni bir daha təkrar etməmək, onların murdar və maskalı üzlərinə çırpmaqdır.Milli intibah müsəlman Türk düşmənlərinin məzarı və ölümü olacaqdır.

26 mart 1998-ci ildə "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikası prezidenti H.Əliyevin "31 Mart Azərbaycanlıların soyqırımı Günü" kimi qeyd olunması üçün xüsusi fərmanı olmuşdur. 28 mart 2006-cı ildə Azərbaycan Respublikası prezidenti İ.Əliyevin "31 Mart Azərbaycanlıların soyqırımı Günü" münasibətilə Azərbaycan xalqına müraciəti olmuşdur.

Bir daha soyqırımı qurbanlarının əziz xatirəsini dərin hüzn və ehtiramla yad edir, Allahdan onlara rəhmət, yaxınlarına səbr diləyir, xalqımıza səadət, ümummilli vəzifələrimizin həlli yolunda uğurlar arzulayırıq.

Hüseyn Kürdoğlu

ÇAĞIR ÜSTÜMƏ

(Çadırda xəstə yatan qaçqın qocanın dilindən)

Ey bahar küləyi, son nəfəsimdir,
Get neçə loğmanı çağır üstümə.
Yağı görməz səni, uç Dəlidağa,
Bir əlçim dumanı çağır üstümə.

Gəz viranə qalmış dustaq vətəni,
Ahımdan od alıb yandır düşməni.
Deynən könlüm quşu arzular səni,
Bir Laçın tərlanı çağır üstümə.

Gör mənim gözümlə Sağrı bulağı,
Min illik buz tutan Əriməz dağı.
Nərgizi, laləni, mavi zanbağı,
Yarpızı, reyhanı çağır üstümə.

Ayağa durmağa yoxdur bir umud,
Səngərdən üzünü İşıqlıya tut.
Gəlsin, daxmam üstə ağlasın bulud,
Gurşadı, leysanı çağır üstümə.

Uç Sarıbabadan, Araza şığı,
Həkəri, Bərgüşad axır şıdırğı.
Sirli boyçiçəyi, çobanyastığı
Dərmandır, dərmanı çağır üstümə.

Keçir gözlərimdən Qırxqız gülşəni,
Yağılar qırdımı pöhrə meşəni?!
Tap kollar dibində qan bənövşəni,
O dərdi pünhanı çağır üstümə.

Hələ ki, sinəmdə çarpır ürəyim,
Ey Muğan küləyi, budur diləyim:
Gör hara sığınıb qaçqın mələyim,
Yaralı ceyranı çağır üstümə.

O dağlar qızının heyranı mənəm,
Həsrəti, möhnəti, hicranı mənəm.
Ala gözlərinin qurbanı mənəm,
Ölməmiş qurbanı, çağır üstümə.

Ovut ürəyimi, umudvar eylə,
Arzumu dağlara sən aşkar eylə.
Kürdoğlu sağdırsa, xəbərdar eylə,
Halı pərişanı çağır üstümə.

7.05.2000

DUMAN, AY DUMAN

Laçını salma yadıma,
Amandır, duman, ay duman!
Ata yurdunun həsrəti,
Yamandır, yaman, ay duman!

Nə söyləyim qaçqın elə,
Bax gözümdən axan selə.
O yurda dönməyim hələ
Gümandır, güman, ay duman!

Gilgil çayı coşub daşan,
Qayalarda min bir nişan.
Kürdoğlu da dağdan aşan,
Dumandır, duman, ay duman!

Dəvəçi-Dəhnə kəndi
7.12.1997

Nəriman Əyyub

YATAMMIRAM, ALLAHIM

Gecə keçir, yuxu qaçıb gözümdən,
Yenə bu gün yatammıram, Allahım.
Oyanmışam, soruşuram özümdən,
Arzulara çatammıram, Allahım.

Sanki dərya mənə olub çox dayaz,
Üzəmmirəm, ayaqlarımdır nasaz.
Bədənim qocalıb, ömür qalıb az,
Dəryalarda batammıram, Allahım.

Fikirlərim bir-birinə qarışır,
Sanki onlar gecələrdə yarışır,
Xəyalımda sürüşdükcə sürüşür,
Saxlamağa tutammıram, Allahım.

Bir pənahım indi qalıb tək sənə,
Sənə baş əyirəm mən dönə-dönə,
Daim yalvarmağım olub ənənə,
Əkilsəm də bitəmmirəm, Allahım.

Nəriman Əyyuba qəm yaxınlaşıb,
Fikiri çoxalıb, daşdıqca daşıb.
Əqlim də, başım da elə bil çaşıb,
Xəyalımı qatammıram, Allahım.

ŞİKAYƏTİM VAR

Çoxdan hiss edirəm, mən qocalıram,
Gənclik çağlarımdan geri qalıram.
Otuz poemamla ləzzət alıram,
Məni Yaradana şikayətim var.

Dədə-baba yurdum, o keçmiş Milli,
Oradan çıxartdı vəhşi yadelli.
Qalmasın orada o murdar dilli,
Hər şeyi qanana şikayətim var.

Vedimi verdilər yurdsuz yanlara,
Dağ çəkdilər onda müsəlmanlara.
Torpaq getdi, xeyli uzanır ara,
Dərdimə yanana şikayətim var.

On yeddi kitabda dərd-ələmim var,
Xalqımın dərdindən min alimim var.
Nə borcum olmayıb, nə sələmim var,
Məni tez anana şikayətim var.

Baxıb bu halıma yanmasın gözəl,
Mən də onun kimi gözəldim əzəl,
İndi hər yerimdən tökülür xəzəl,
O gözəl canana şikayətim var.

Qəm çəkmə ürəyim, olma vəfasız,
Günlərim keçməyib heç də cəfasız.
Özümdən narazı olmuşam yalnız,
Milli Nərimana şikayətim var.

TARİYEL KÜSKÜN

YOX BABA, SƏN GÖRƏN DÜNYA DEYİL BU

Misin ləldən dəyərlidi, dəyəri,
Yox bab, sən görən dünya deyil bu.
Bu dünyanın, diz üstədi çörəyi,
Yox baba, sən görən dünya deyil bu.

Qarğalar qartaldan yüksəkdə uçur,
Gədəni Aqildən nadanlar seçir,
Mərdin cığırından, namərdlər keçir,
Yox baba, sən görən dünya deyil bu.

Izi yoxdu divarının, daşının,
Dadı itib plovunun, aşının.
Oxunmayır surələrin, yasinin,
Yox baba, sən görən dünya deyil bu.

Haram pulla həccə gedir "dədələr",
Bığ yerinə, saç uzadır gədələr.
Yada düşmür sən qoyduğun hədələr,
Yox baba, sən görən dünya deyil bu.

Görünürük, yalnız kişi donunda,
Misri qılınc pas dağlayıb qınında.
Yerimiz yox o dünyada yanında,
Yox baba, sən görən dünya deyil bu.

Uçurdular, sən tikdiyin talvarı,
Dağ kişisi, məkan seçib "bulvarı".
Dəyişdirib ərlə-arvad şalvarı,
Yox baba, sən görən dünya deyil bu.

Baba, Küskün görənləri görmədin,
Nə yaxşı ki, sən bunları bilmədin.
Şükür olsun, belə ömür sürmədin,
Yox baba, sən görən dünya deyil bu.

TARİYEL KÜSKÜN
29.03.2012.

MƏN DAĞLARIN NƏR OĞLUYAM

Kürdlüyümlə öyünürəm,
Mən dağların nər oğluyam.
Qüdrətimdən enilmərm,
Kəlbəcərin ər oğluyam.

Nəsilindən qeyrət alan,
Nadanları atdan salan,
Düşmənin bağrın yaran,
Koroğlunun kür oğluyam.

Evladıyam şah dağların,
Yaşıl donlu yaylaqların,
Dür şərbətli bulaqların,
Saf qoxulu dür oğluyam.

Əzablarda yoğrulmuşam,
Sərt sularda doğrulmuşam.
Kürd bətnindən doğulmuşam,
Milyonların bir oğluyam.

Qala qurdum qüdrətimlə,
Yer titrətdim heyrətimlə,
Ucalıram qeyrətimlə,
Biləklərin gir oğluyam.

Kürd adlanan millətimə,
Babək, Nəbi qüdrətinə,
Qurban olum qeyrətinə,
Bu millətin pir oğluyam.

Allah bizə verib payın,
Ey millətim, yoxdur tayın.
Bu Küskünü, Aqil sayın,
Sir dünyanın, sir oğluyam.

TARİYEL KÜSKÜN
27.03.2012.

Barîyê Bala

NEYARÊ HAR!

Bese, bese, îdî axam pêpez meke,
Gul-sosinêm meheçqîne, îsaf bike.
Koşk-bircêd min cî raneke, mehedmîne,
Çem û kanyêm bê xov meke, memiçqîne.
Ewa axa tew şerefa dayka mine,
Her yek gulek şehîdekî gelê mine.
Ew koşk û birc, kevn dîroka gelê minin,
Ew çem-kanî, herd bistanê dayka minin.
Ji dest-pîyêd serokêd min qeyda veke,
Kan û xezne milkê minin, talan meke.
Lawê Kurda tew mêrxas in, pê nikarî,
Tu xayînî, xapxapokî, bê îtbarî.
Namûs, xîret boy te tune, îdî here,
Tew axa min tiverike, lê megere.
Tu xwînrêjî, qetilkarê gelê minî,
Bê kok-eslî, deyndarê heqê minî.
Xewa giran îdî zû da ez rabûme,
Min heqê xwe naskirîye, serwext bûme.
Zef dijware, îdî tu min bixapînî,
Bikî kole, ber derê xwe bigerînî.
Îdî here, ez te vira qet nebînim,
Cara îcar ezê ruhê te bistînim.
Bê şerefo, ji ku hatî, hetanî ku,
Dinya zane, pêş dîrokê rûreşî tu.
Biteyîse, zû dûrkeve, here ji vira,
Pêşiya gotîye: "Gurê gerik, nabe bira".

WELAT

Him dinalim, him dizêrim, dûrî, Welat,
Dil hejarim, tengezarim, nûrî, Welat,
Tirs û xofim, sirûk pême, tune bawer,
Jan giranim, tu melhema minî, Welat…

Xerîb warim, hêlîn sarim, Kurdim, Welat,
Hesretkêşim, te nabînim, derim, Welat,
Zelûl xemim, xalî nabin çav ji hêsra,
Stûna dilî, bext-mirazê minî, Welat…

Per û baskî, xemil-rewşî, timê, Welat,
Qudûm-qamî, şewq û şamî, min ra, Welat,
Bêy te îdî ez bedhalim, nema tawet,
Zîyaretî, tiverikî, boy min, Welat…

BERFA SİPÎ, ÎDÎ BESE, SER QENDÎLA MİN DA LÊKÎ

Geh lêdikî, geh vedikî, berfa sipî,
Diborzînî, basû dikî, geh jî tîpî.
Hemû renga tenê dikî tu rengê xwe,
Qenc û xirav derbaz dikî dewrana xwe.
Rebbê jorîn ev rusqeta daye te da,
Weke hevdu tu lênakî hemû dera.
Cîkî hindik, cîkî gelek tu lêdikî,
Geh dikenî, geh digirî, geh vedikî.
Dema ku tu digihîjî ser axa min,
Pir hêrs dibî, tu datînî tew barê xun.
Rica dikim, Qendîla min kêm hemêzke,
Barê giran cîkî dinê vala bike.
Şêr gêrîla nav zaxa da meqiflîne,
Zû derbaz be, li wir hindik tu bimîne.
Dinya tu car awa naçe, dûmek heye,
Gelê mine aza bibe, ev eseye.
Ewê demê ser axa min dubar lêke,
Biborzîne, basû bike, him jî kêfke.

ÎŞEV DÎSA TU KETİYÎ BÎRA MİN DA

Şevê dirêj, xew nakeve çavê min da,
Dişewitim nav mitalê kûr-agirda.
Te digerim nav bajara, hemû gunda,
Te nabînim, tu tunenî, bûyî unda.

Nav govenda, li dîlana te digerim,
Xasbaxçê ter, qûmistana te digerim,
Koşk û sehra, dibistana te digerim,
Te nabînim, tu tunenî, kuda herim.

Ser kanîya, dora çema, terrazuna,
Cem domama, bal bedewa, zend bazina,
Seyrangeha, li cem dayka, pîre jina,
Te nabînim, te pirs dikim çûk-mezina.

Şaxêd gelya, daristana te pirs dikim,
Zer-zinara, gulistana te pirs dikim,
Keç û xorta, qelfê zerya te pirs dikim,
Te nabînim, dîtî tune, ez çi bikim.

Lihef bûze, nivîn derzî, balgî kevir,
Halêm digrîn hîva sê şev, stêrk û ewir,
Dest nîyêd min bûne çoçil, bûne tevir,
Însaf bike, nêzîk dibe siba gewir,
Heta hebim, ezê time te bigerim,
Ez tu cara, tu bedewê te naguherim.

www.netex.com

ŞƏRƏF XAN BİDLİSİNİN «ŞƏRƏFNAMƏ» ƏSƏRİ KÜRD XALQININ TARİXİ MƏNBƏYİ KİMİ

Əvvəli ötən saylarımızda

Əhalisi. Bidlis əmirliyində əhalinin tərkibi nisbətən müxtəlif idi. Burada kürdlərlə yanaşı asori və erməni ailələrini görmək olardı. Lakin əhalinin əksəriyyətini kürd tayfalarından ibarət olan müxtəlif qəbilələr təşkil edir. «Şərəfnamə» də bu əmirlikdə yaşayan əhalidən 4 min nəfərinin erməni və asori olduğu qeyd edilmişdir (76, 341).

Bidlisinin yazdığına görə Bidlis əmirliyində 24 müxtəlif kürd tayfa qoruğu yaşayırdı (76, 361). Əgər biz hər bir tayfa qoruğunu orta hesabla 2 min nəfər hesab etsək, o zaman təkcə Bidlis vilayətində 48 min nəfər əhalinin yaşadığını qeyd edə bilərik. Lakin sonralar Bidlis əmirliyi haqqında məlumat verən Şəms Sami bu vilayətin (Bidlisin) 172 kəndi, 30 min nəfər əhalisi və bu əhalinin də üçdə bir hissəsinin erməni və asori olduğunu göstərmişdir (81, 123).

Beləliklə, Bidlis əhalisinin sayı haqqında «Şərəfnamə» dəki məlumatla, «Qamus» dakı məlumat arasında fərq görürük. Bizə görə hər iki müəllifin verdiyi məlumat düzgündür. Lakin bu fərqi əmələ getirən ictimai və siyasi hadisələr olmuşdur. Yəni digər kürd əmirliklərində olduğu kimi, Bidlis əmirliklərində də Osmanlı hökmranlığı başlandıqdan sonra əhalinin miqdarı getdikcə azalmışdır. Bunun əsas səbəbini isə Osmanlı-İran müharibələrində axtarmaq lazımdır.

Bidlis vilayətində yaşayan kürd tayfaları içərisində Ruzəkilər ən qüvvətli əşirət hesab olunurdu. Buna görə də həmin tayfa bu əmirliyin tarixində çox mühüm rol oynamışdır.

Bidlisi yazır ki, Kürdüstanı işğal etmək fikrində olan qüvvətli şahlar əvvəlcə Bidlis hökmdarları və Ruzəki əşirəti ilə müharibə etməli olurdular. Çünki Ruzəkiləri tabe etmədən başqa kürd tayfalarını itaət altına almaq mümkün deyildir (76, 360).

1479-1481-ci illərdə Ağqoyunlu hökmranlığına, 1535-1538-ci illərdə isə Osmanlı ağalığına qarşı apardıqları mübarizəni həmin tayfanın igidlik nümunələrindən biri kimi qeyd etmək olar.

«Şərəfnamə» də deyilir ki, Bidlis qalasının daşları qədər Ruzəki əşirətinin başları kəsilmişdir (76, 360). Beləliklə, həm çoxluğu, həm də igidliklərinə görə Bidlis hökmdarlığı əsrlər boyu Ruzəki zadəganlarının ixtiyarında olmuşdur.

